**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I**

№ 15 05 02 2020-ci il

# "DOST İş Mərkəzi" MMC-nin Binəqədi rayonu üzrə 2020-ci il üçün " Ərazi Məşğulluq Proqramı"-na daxil edilməsi barədə

Rayonun iqtisadi və sosial inkişaf proqramlarının göstəriciləri əsasında Rayon Məşğulluq Mərkəzi tərəfindən Ərazi məşğulluq proqramı hazırlanaraq Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuşdur.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Bakı Şəhər İcra Hakimiyyətinə daxil olmuş 23 aprel 2019-cu il tarixli, 19030052109 saylı məktubda haqqı ödənilən ictimai işlərin icrasının təşkilini yeni mexanizm çərçivəsində təmin etmək məqsədilə "DOST İş Mərkəzi" MMC-nin adının təsdiq olunaraq icra edilən, habelə növbəti illər üçün təsdiq ediləcək Ərazi məşğulluq proqramlarına daxil edilməsi qeyd olunmuşdur.

Qeyri-məşğul əhalinin işlə təmin olunması işinin səmərəliliyinin artırılması məqsədilə " Yerli icra hakimiyyəti haqqında Əsasnamə"nin 6.8 və 3.8.0.1-ci bəndlərinə əsaslanaraq

**Q ə r a r a   a l ı r a m:**

1. Rayon Məşğulluq Mərkəzi tərəfindən "Dost İş Mərkəzi" MMC-nin Binəqədi rayonu üzrə 2020-ci il üçün Ərazi Məşğulluq Proqramına daxil edilməsi təmin edilsin.

2. Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinə "Dost İş Mərkəzi" MMC tərəfindən işə qəbul edilmiş şəxslərin haqqı ödənilən ictimai işlərə cəlb edilməsi işinə

CS CamScanner ilə tarandı

nəzarətin gücləndirilməsi və işçi qüvvəsindən səmərəli istifadə edilməsi ilə bağlı tədbirlərin görülməsi tapşırılsın.

3. Sərəncamın icrasına nəzarət RİH başçının müavini Vüsar İsmayılova həvalə edilsin.

4. Sərəncamın surətlərinin aidiyyəti üzrə çatdırılması RİH başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** — **Sabir Əliyev**

SƏNƏDLƏR ÜÇÜN

CamScanner